NƏSİR GƏDİRLİ

# QANA BƏLƏNMİŞ TORPAQ

**Bakı**
**Mütərcim**
**2022**

NƏSİR GƏDİRLİ. QANA BƏLƏNMİŞ TORPAQ. *Şeirlər*.
– Bakı: Mütərcim, 2022. – 112 səh.

G $\frac{4702060000}{026}$ 124-22

© NƏSİR GƏDİRLİ, 2022

# ÖN SÖZ

## NİSGİLDƏN NİKBİNLİYƏ SƏSLƏYƏN MİSRALAR

Filologiya üzrə fəlsəfə doktoru Nəsir Famil oğlu Xankişiyev ingilis dili üzrə mütəxəssis-alim və müəllimdir. O, eyni zamanda Nəsir Qədirli imzası ilə şeirlər də yazır. "İngilisdilli Kanada ədəbiyyatı" adlı dəyərli tədqiqatı ilə tanışam. "Dünya məni aldadıb" ("Nurlan" 2008), "Həqiqətlər, gümanlar" ("Mütərcim" 2015), "Qisas" ("Mütərcim" 2018), "Məndəki mən" ("Təknur", 2020) adlı şeir kitablarının müəllifidir. Bu dəfə də Nəsir müəllim lirik-emosional duyğulara köklənərək "Qana bələnmiş torpaq" adlı mənzum əsərləri ilə oxucuların görüşünə gəlir. Kitabın adında ifadə olunan həqiqət təbii ki, içərisindəki məzmuna işıq salır. Burdakı "Azərbaycan əsgəri" adlı mənzum nümunənin ilk bəndinə fikir verək:

*Talan olmuş obasına-elinə,*
*Azad olmuş hər yamacın belinə,*

*Düşmən kəsmiş ağacların yerinə*
*Bayraq əkir Azərbaycan əsgəri!*

Göründüyü kimi, müəllif burada, hər şeydən öncə, Azərbaycan əsgərinin qəhrəmanlığını öyür, işğaldan azad edilən doğma yurd yerlərimizdə, doğma el-obanın hər guşəsində bayrağımızın dalğalandığını vəsf edir. Poetik bir ifadə olaraq bunu "bayraq əkir" şəklində işlədir. Yəni düşmənlərimizin talan elədiyi, virdi-viran etdiyi yurdumuzu işğaldan azad edən qəhrəman Azərbaycan əsgəri indi orada şanlı üçrəngli Azərbaycan bayrağını ucaldıb: "Düşmən kəsmiş ağacların yerinə bayraq əkir Azərbaycan əsgəri!" Sual yarana bilər ki, təbiətin canlı neməti olan ağacları düşmən kəsib, məhv edib. Artıq bu ağaclarda həyat nişanəsindən əsər-əlamət qalmayıbsa, necə olar ki, cansız – yəni quru ağaca bənd edilib bərkidilmiş bayrağı həmin ağacların yerinə necə əkmək olar? Əvvəla, burada deyilmiş fikir bədii deyimdir. Obrazlı şəkildə işlədilmiş şair təfəkkürünün məhsuludur. İkincisi, qədim türk təfəkküründə bayraq müqəddəs sayılmaqla yanaşı həm də canlı hesab edilmişdir. Deməli, bu məntiqdən düşündükdə, bayraq canlıdırsa, onun bağlandığı-bərkidildiyi ağac da mifik şüurda – əski düşüncədə canlıdır. Üçüncüsü, bu mifik reallığın inikası kimi özünü göstərən bir həyat həqiqəti də burada var. Düşmənlərimiz əhrimənxislətlidir, harda

həyat işığı görürlərsə, oranı kor qoyurlar. Necə ki, işğal elədikləri torpaqlarımızda həyat adına yaraşan nə varsa, hamısını yerlə-yeksan ediblər. İşıq gələn yerə, işıq düşən yerə barmaqların tıxayıb, hər yeri öz erməni-əhrimən adlarına uyğun olaraq qaranlığa qərq ediblər. Biz isə Azərbaycan əsgərinin timsalında Hörmüzün təcəssümçüsü olaraq hər yerə üçrəngli bayrağımızı həyat-dirilik nişanəsi olaraq sancırıq. Bu isə onu işarələyir ki, Azərbaycan bayrağı əkilən – ucaldılan hər bir guşədə tezliklə şən həyat bərqərar olacaq, işğaldan azad edilmiş ərazilərimiz yenidən işığa – nura qərq olacaqdır.

Bax Nəsir Qədirlinin Azərbaycan əsgərinin adına-üvanına qoşduğu yuxarıdakı misralarda ifadəsini tapan bədii həqiqətin yozumu budur. Ona görə kitabını "Qana bələnmiş torpaq" adıyla təqdim edir ki, igidlərimizin al qanına bələnən torpağımız bu müqəddəs qanla suvarılıb dirilik tapdı, ona görə də bu kitabda özünə yer alan misralarda kədər, nisgil qarışıq bir qürurluluq, həyata nikbin baxış var. "Şəhidlər xiyabanı" şeirinə diqqət etsək, dediyimizi təsdiq edərik:

*Onlar baxdı baş daşından,*
*Qəlbim para-para oldu.*
*Qəhər boğdu, göz yaşından*
*Ruhum pərən-pərən oldu.*

*Belə baxış görməmişdim,*
*İti qılınc ovxarında.*
*Belə naxış görməmişdim*
*Olum-ölüm qovşağında.*

Şəhidlər xiyabanını təsvir edən müəllif göstərir ki, nakam şəhidlərin başdaşından boylanmaları qəlbimi paramparça elədi. Ancaq 2-ci benddə bu bədbin notdan nikbin ovqata keçir: şəhidlərin baxışından düşmənin bağrını ovxarlanmış iti qılınc kimi kəsib doğradığını hiss etdiyini qeyd edir, şəhidlərin nakam taleyini olumla ölümün qovşağındakı naxışa bənzədir. Bəs bu, nə cür naxışdır? Növbəti benddə buna aydınlıq gəlir:

*Bu daş deyil – canlı insan...*
*Cərgə-cərgə sıralanıb.*
*Sanki onlar əzəl başdan*
*Döyüşlərə hazırlanıb.*

Bəli, daş deyil – canlı insandı deyən şair cərgə ilə dəfn olunmuş şəhid məzarlarını Qurani-kərimdə də buyurulduğu kimi, şəhidlərin ölməyib, Tanrı dərgahında diri olduqlarını bildirir; olum-ölüm qovşağındakı naxış dedikdə, məhz buna işarə etmək istəyir.

*Qəzəb donub üzlərində,*
*Sevinc, nəşə gözlərində.*
*Bir qürur var özlərində*
*Şəhid olmuş əsgərlərin.*

Bu minvalla Nəsir Qədirli şəhidlərin üzlərində-sifətlərində düşmənə qarşı qəzəb hissinin donduğunu – heykəlləşdiyini, fəqət gözlərindən vətən uğrunda candan keçməyə hazır olan fədai kimi sevinc hissi yağdığını dilə gətirir. Vətən yolunda ölüm-itim olduqlarını bilərək döyüşə gedən bu igidlərin simasında bir qürur hissi vardır ki, onlar məhz haqq döyüşünə qalxdıqları üçün özlərini ürəklə, canla-başla bu mübarizə meydanına atmışlar və şərəflə qandan-candan keçərək şəhidliyə-əbədiyyətə qovuşmuşlar. Ona görə də mən yazımın hələ əvvəllərindən də qeyd etmişdim ki, kitabda kədərəngiz duyğularla sabaha inam-gələcəyə nikbin baxış bir yerdə, iç-içədir. Kitabboyu yazılmış şeirləri oxuduqca, şahidi olacaqsınız. İndi isə oxucuların kitabla üz-üzə qalmasının vaxtıdır.

***Şakir Albalı***
*filologiya üzrə fəlsəfə doktoru*

# ZƏFƏR YOLU

## *Ula, Qurdum! Zaman, sənin zamanın!*

Barmağını tətiyə bas, əsgərim!
Açılıbdır bəndim, bərəm, səngərim,
Başa çatır ağrım, acım, əngəlim,
Ula Qurdum! Zaman, sənin zamanın!

Doğma dağlar,qucaq açır oğluna,
Tuşlanır güllələr, düşmən bağrına,
Son verilir talanlara, soyğuna,
Ula Qurdum! Zaman, sənin zamanın!

Şanlı ordum çox zəfərlər çalacaq,
Düşmənlərdən qisasını alacaq,
Bayrağını zirvələrə sancacaq,
Ula Qurdum! Zaman, sənin zamanın!

Türk qardaşım dörd yanımda yer alıb,
Ermənin in ürəyinə xof salıb,
Biz haqlıyıq! Qələbəyə az qalıb,
Ula Qurdum! Zaman, sənin zamanın!

Baş komandan son şərtini söylədi,
Daşnaqların bağrın başın teylədi,
Dığaların son əlacı tövbədi!
Ula Qurdum! Zaman, sənin zamanın!

*27.09.2020*

## *Zəfərə gedən yol*

Şükür olsun Sənə, böyük Yaradan!
Yaralarım yavaş-yavaş sağalır.
Şanlı Ordum barmaq basıb tətiyə,
Kəndlərimi azad edir, dağ alır.

Şükür olsun Sənə, şükür Xudaya!
Həsrətin, əzabın sonu gələrmiş.
Kədərin, qüssənin, dərdin əlindən,
İnsanın sifəti, gözü gülərmiş.

Şükür olsun Sənə, şükür Xudaya!
Insan oğlu Vətən üçün ölərmiş.
Dirənməmiş, vuruşmamış, ölməmiş
Haqqın işi zor yerinə gələrmiş.

Şükür olsun Sənə, şükür Xudaya!
İgid imiş hər qızımız, oğlumuz.
Qələbəyə imza atan ordumuz,
Şuşamıza bayraq asa bilərmiş.

## *Azərbaycan əsgəri*

Talan olmuş obasına, elinə,
Azad olmuş hər yamacın belinə,
Düşmən kəsmiş ağacların yerinə,
Bayraq əkir Azərbaycan əsgəri.

Döyüş ruhu coşmaqdadır hər canda,
Dalğalanır Ulu Bayraq hər yanda,
Cəbrayılda, Kəlbəcərdə, Laçında,
Bayraq dikir Azərbaycan əsgəri.

Əməl edir hər verdiyi sözünə,
Çıxacaqdır bir gün Cıdır Düzünə,
Düşmənlərin ürəyinə, gözünə,
Dağlar çəkir Azərbaycan əsgəri.

Üç yüz illik ədavəti bu günlər,
Xitam! – deyib, sona verib bu günlər,
Dəfn edilmiş ədaləti bu günlər,
Bərpa edir Azərbaycan əsgəri.

Ümid dolu bir çıraqdır yanacaq,
Hər könülə bir damla nur salacaq,
Tarix yazıb, tarixlərdə qalacaq,
Qarabağda Azərbaycan əsgəri.

*20.10.2020.*

## *Gülə-gülə ölümə gedənlər*

De, kim gedər ölümə,
Üzünə gülə-gülə.
De, kim gedər ölümə,
Ölməyin bilə-bilə.

O, şəhid, oğlumuzdur,
Can verib gülə-gülə.
Onun da igidliyi,
Düşübdür dildən-dilə.

O, elin balasıdır,
Ölməzlik qalasıdır.
Bütün şəhidlər, billah,
Tarixdə qalasıdır.

Qurban verdi canını,
Vətənimiz yolunda.
Sevindirdi hamını,
Millətlərin yanında.

Şəninə deyilən söz,
Tərif deyil anında.
Aciz qalır hər bir söz,
İgidliyi yanında.

## *Şəhid anası*

Candan əziz oğluna,
“Getmə!” deyə bilmədi.
Uğur diləyib ana,
Gözündən yaş gilədi.

Düşmən kəsmiş bərəni,
Necə “getmə!” deyəydi.
“Mən də sevdim Vətəni”,
Bəs necə söylüyəydi.

Oğul getdi döyüşdü,
Səngərləri bölüşdü.
Qalib gəlib düşmənə,
Şəhidliyə yetişdi.

Zəfər çalib qayıtdı,
Bürünüb al bayrağa.
Ləyaqəti qaytardı,
Canı Azərbaycana.

Ağlasa da analar,
Öz oğluyla öyündü.
“Vətən sağ olsun” – deyib,
Qüruruna büründü.

## *Şəhidlər xiyabanı*

Onlar baxdı baş daşından,
Qəlbim para-para oldu.
Qəhər boğdu, göz yaşından,
Ruhum pərən-pərən oldu.

Belə baxış görməmişdim,
İti qilinc ovxarında.
Belə naxış görməmişdim,
Olum-ölüm qovşağında.

Bir daş deyil – canlı insan...
Cərgə-cərgə sıralanıb.
Sanki onlar, əzəl-başdan,
Döyüşlərə hazırlanıb.

Qəzəb donub üzlərində,
Sevinc, nəşə gözlərində,
Bir qürur var özlərində,
Şəhid olmuş əsgərlərin.

Heç vaxt ölməz, həp diridir,
And yerimiz,a nd piridir.
Sözün susan, don yeridir,
Şəhidlərin xiyabanı.

## *Bu gecə bir azca rahat yatmışam*

Cox uzun gecələr oyaq qalmışdım,
Didib parçalardı fikirlər məni.
Bir şirin yuxuya həsrət qalmışdım,
Bu gecə bir azca rahat yatmışam.

Sevincdən ağzımda dilim lal oldu,
Göz yaşım üzümdə büllur xal oldu,
Qələbə müjdəsi dalbadal oldu,
Bu gecə bir azca rahat yatmışam.

Şığıdı qartallar yerdə, havada,
Gör neçəsi şəhid oldu burada.
Əsgərimiz zəfər çaldı Şuşada,
Bu gecə bir azca rahat yatmışam.

Kəsildi düşmənin bərəsi, bəndi,
Həyata keçmədi erməni fəndi.
Qorxudan tərk etdi şəhəri, kəndi,
Bu gecə bir azca rahat yatmışam.

Tükəndi qərarım,nə qalma-qaldı,
Düşmənin niyyəti gözündə qaldı,
Yüzillik qisası oğullar aldı,
Bu gecə bir azca rahat yatmışam.

Qayıtdı özümə qürurum, mənim,
Qayıtdı şöhrətim, şanım, şərəfim,
Qayıtdı hər şeyim, nə gileylənim,
Bu gecə bir azca rahat yatmışam.

## *Vətənin o başı bu başı olmur*

Riyakarlıq bürüsə də o tayı,
Qorxutmayır hədə, qorxu bu tayı,
Niyyət yoxdur qardaşlıqdan savayı,
Yerindədir ismətimız, həyamız.

İki bölmüş qarı düşmən bizləri,
Əyilsə də bükülməmiş dizləri,
Qulaqlarda babaların sözləri:
Tətikdəyik, qurtarmayıb davamız.

Xudafərin tarixlərin yaddaşı,
Sirlə dolu, hər qayası, hər daşı,
Kim unudar doğma bacı, qardaşı,
Dövran bizim, çalınmaqda havamız.

Savalanım o tayımdan boylanır,
Sular axıb Ziyaratda çaylanır,
Əsirlərdir həsrət bizə paylanır,
Dağıdılıb ocağımız, yuvamız.

Gün gələcək yıxılacaq sərhədlər,
Birləşəcək həmfikirlər, həmdərdlər,
Kəsiləcək rusca, farsca söhbətlər,
Bir od üstə qaynar olar tavamız.

Azərbaycan, Türkiyə də türkdülər,
Düşmənlərin qollarını bükdülər,
Qarabağda Al Bayraqlar dikdilər,
Xilas oldu baş tacımız – Şuşamız.

Əsirlərdir sağalmayır yaramız,
Əskik olmur yanımızdan bəlamız,
Səbr versin, rəhmət qılsın Xudamız,
Şəhid oldu, gör neçə min balamız.

Zəfər dolu taleyimiz öndədir,
Birliyimiz bir gələcək gündədir,
Ulu Tanrı! Əlacımız Səndədir!
Aydınlaşıb, açılmaqda səmamız.

Araz axıb iki yerə bölsə də,
O tayı da, bu tayı da obamız.
Ayrı doğulsa da, ayrı ölsə də,
Şəhriyar da, Bəxtiyar da babamız.

## *Şəhidlər xiyabanında*

Bir cənnət bağıdır müşkənbər qoxur,
Ah çəkib bülbüllər nəğmələr oxur,
Daşlardan gör necə igidlər baxır,
Şəhidlər bağında, xiyabanında.

Həzər pis niyyətdən, pis gözdən həzər,
Bu cənnət bağında mələklər gəzər,
Şəhid baxışları ürəklər əzər,
Şəhidlər bağında, xiyabanında.

Səliqə-sahmanı yerli yerində,
Müqəddəs məqamdır xalqın qəlbində,
And yeri olubdur millət dilində,
Şəhidlər bağı da, xiyabanı da.

Burda səcdə qılır oğul, uşaq, qız,
Əriyir qəlblərdə nifrət, kədər, buz,
Gözlərə yaş dolur, dodaqlar susuz,
Şəhidlər bağında, xiyabanında.

Cəmləşib burada namus, qeyrət, ar,
Ləyaqət, iftixar tutub bərqərar,
Ruhlar cilvələnir azad, ixtiyar,
Şəhidlər bağında, xiyabanında.

Bu igid ərlərin, bu oğulların,
Anası Vətəndir, atası Vətən,
Torpağı qanıyla yoğuranların,
Çarəsi Vətəndir, mayası Vətən.

## *Qana bələnmiş torpaq*

Dörd min oğul, yaraqlanıb getdilər,
"Gəldik" – deyib, tətiklərin çəkdilər.
Qan tökdülər, Vətən deyib torpağa,
Zəfər çalıb Şəhidliyə yetdilər.
Çox şükürlər! Bu oğullar vardılar,
Düşmənlərin qabağında durdular.
Baxılmadı gözlərinin yaşına,
Od ələndi ermənininin başına.
Azad oldu neçə oba, neçə kənd,
İşlətsə də düşmən ordu neçə fənd.
Azad oldu Ağdam, Laçın, Kəlbəcər,
Bu yerlərdən, deyin, kimsə əl çəkər?
Azad oldu həm Cəbrayıl, Füzuli,
Qubadlıyla, Zəngilanın Ağbəndi.
Şığıyanda düşmən üstə igidlər,
Ermənilər ilim-ilim itdilər.
Dağıldılar it unu tək çöllərə,
Türk oğlunun adı düşdü dillərə.
Zor alındı ermənininin havası,
Yerdə qalmaz biz türklərin qisası.
Torpaq bizim namusumuz, arımız,
Olmaz ondan bir kimsəyə payımız.
Ərənlərin var tarixdə sorağı,
Qanlarıyla yoğurublar torpağı.

İgidlərim sevə-sevə verib can,
Vətən üçün torpağa qan,suya qan.
Üç yüz ildə, min bir hiylə qurublar,
Xəyanətlə sırtımızdan vurublar.
Üç yüz ildir, qan tökülür torpağa,
Macal yoxdu qanı qanla yumağa.
Ölsələr də, min-min kişi, bu yolda,
Bu günəymiş qələbə də, qisas da.
Heç bir millət belə tarix görməmiş,
Torpaq qana, qan torpağa bələnmiş.
Bu millətin qisməti qan, bəxti qan,
Ömrü boyu azadlığa atıb can.
Açılmamış başı heç vaxt qadandan,
Yanvarı qan, Fevralı qan, Martı qan.
Bircə qarış torpaqı yox qadasız,
Alınmasın, verilməsin davasız.
Torpağımız, qanımız da ləzizdir,
Vətənimiz, şəhidimiz əzizdir.
Uzun çəkmiş bu qovğalar, davalar,
Başımıza gəlmiş min cür bəlalar.
Biri getmiş, biri gəlmiş başıma,
Göz dikiblər torpağıma, daşıma.
Bağlayıblar ayağımı,əlimi,
Bölən, bölüb, sökən, söküb evimi.
Qoymayıblar bir dikəldim belimi,
Dəyişiblər neçə kərə dilimi.

Danışıblar rusca, farsca ,ərəbcə,
Həll ediblər taleyimi xəlvətcə.
Hələ vardır, gizlindədir cox sirlər,
Açıqlayar, bir gün gələn nəsillər.
İki düşmən yola getməz yan-yana,
İstəmirik yaşamağı can-cana.
Davam etməz dava-dalaş bir belə,
Bir dəfəlik həll edilsin məsələ.
Bu yüz il də, olsun bizim əsrimiz,
Açılmaqda hər bərəmiz, bəndimiz.
Dostlar bizə sayqıların ünləyir,
Bütün dünya səsimizi dinləyir.
"Var imzamız imzaların içində",
Dost-düşmənlər ayrılmaqda, seçimdə.
Liderimiz gələcəyə səsləyir,
Millətimiz ona ümid bəsləyir.
Yol göstərib aparacaq irəli,
Ulu Öndər özü qoyub təməli.
O, İlhamdır – bu millətin fatehi,
Bu torpağın, bu dövlətin salehi.
Uğur olsun! Ey, Müzəffər Komandan!,
Hifz eyləsin, kömək olsun Yaradan.

## *Zərb ritmində havacat*

Biz vuruşduq Cəbrayılda, Laçında,
Füzulidə, Qubadlıda, Xaçında,
Dayanmışdı qardaşlarım yanımda,
Halal olsun torpağıma qanım da.
Biz gəlmişik dığalara dağ vuraq,
Qisas alaq, Zəfər çalaq, yurd quraq.

Əlli gəldik, yüz olsun ki, biz çıxaq,
Dağlar aşıb, qayaları düz çıxaq,
Daşaltıdan ilk Şuşaya biz çıxaq,
Dığa vuraq, qulaq kəsək, bel qıraq.
Biz gəlmişik dığalara dağ vuraq,
Qisas alaq, Zəfər çalaq, yurd quraq.

Bir zamanlar biz qıraqdan baxardıq,
Hirsimizdən alışardıq, yanardıq,
Uduzmağı ayıb bilib ağlardıq,
O zamankı rəhbərləri qınardıq.
Biz gəlmişik dığalara dağ vuraq,
Qisas alaq, Zəfər çalaq, yurd quraq.

Şuşa bizə qibləgahdır, mayakdır,
Silahımız iki əldir, ayaqdır.
Sursatımız burda xəncər, biçaqdır,

Allahımız bu gün bizə dayaqdır.
Biz gəlmişik dığalara dağ vuraq,
Qisas alaq, Zəfər çalaq, yurd quraq.

Şuşa bizim, alınmayan qalamız,
Şuşa bizim, dərdimizə carəmız,
Şuşa bizim, qeyrətimiz, arımız,
Onu tikib Pənahəli babamız.
Biz gəlmişik dığalara dağ vuraq,
Qisas alaq, Zəfər çalaq, yurd quraq.

## *Ümid itməyəndə*

Bilirdim nə vaxtsa çözülər bu dərd,
Bitər, sona yetər, sökülər həsrət,
Vida görüşünə tələsər qürbət,
Yır-yığış eyləyib, hazırdım mən də.

Vətənə məhəbbət, sevgi qəlbində,
“Qarabağ, bizimdir” hökmü dilində,
Silahlar gurladı türkün əlində,
Çökdürdü düşməni, xalqım, önündə.

Qaytardı oğullar namusu, arı,
Tutdu öz yerini “kişi papağı”,
Qovuşdu Vətənə,Vətən torpağı,
Qalmadı bir qisas qarı düşməndə.

Bir yol kənarında bitən ağactək,
Çərləyə-çərləyə gözlədim mən də.
Sönmədi gözümdə yanar çıraqtək,
Ümid də, inam da qalmışdı məndə.

Hər yanda ucalır Zəfər Bayrağım,
Azad nəfəs alır indi Torpağım,
Üzüm Qibləgaha, yolda ayağım,
Çox rahat yatacam,bir gün ölsəm də.

## *Xocalı haqqında elegiya*

Bir fevral gecəsi baş verənləri,
Heç bir dil söyləyə, danışa bilməz.
O qədər dəhşəti, vahimələri,
Heç bir müharibə törədə bilməz.

Yanırdı küçələr, yanırdı evlər,
Kefdən hayqırırdı daşnaq gədələr.
Oda qalandılar körpə nəvələr,
Əlacsız qalmışdı ulu dədələr.

Arxalı köpəklər diş qıcdı bizə,
Günahsız insanlar töküldü düzə.
Bir gecə içində qan çıxdı dizə,
Soxuldu düşmənlər ərazimizə.

Dağlardan çox soyuq külək əsirmiş,
Sanki təbiət də düşmən kəsilmiş.
Şərəflə ölməyə dəyər verənlər,
Soyuqdan ölməyi üstün bilərmiş.

Baxmadı yağılar qıza, gəlinə,
Min divan tutuldu Türkün elinə,
Qismətmiş qurtuluş mində birinə,
Soyqrım törəndi millətimizə.

Nə silah var idi,nə də ki,rəhbər,
Qeyrətli kişilər düşmüş dərbədər.
Torpaqlar yiyəsiz, qurbanlar hədər,
Adamlar ümidsiz, gözlərdə kədər.

Dünya dövlətləri baxmırdı sözə,
Nə kömək edildi, nə yardım bizə.
Sığındı qulaqlar eşitməzliyə,
Soyqrım vuruldu görünməzliyə.

Otuz il gözlədik dəyişsin zaman,
İtmədi gözlərdə ümidlə inam.
Qisasın zamanı, yetişsin haman,
Ölməsin qəlblərdə qisas, intiqam.

Ali Baş Komandan əmrini verdi,
Hücuma keçirik! Haydı irəli!
Atıldı döyüşə igid oğullar,
Tortpaqlar düşməndən azad edildi.

Allah cox görməsin onları bizə,
Vurdular özlərin alova, közə.
Qaytardı torpağı Şəhidlər bizə,
Qayıtdı qazilər öz cərgəmizə.

Yandı ürəklərdə ümid çırağı,
Yelləndi əllərdə Üçrəng Bayrağı.
Hələ qapanmamış döyüş varağı,
Bir gün bütövləşər Türkün torpağı.

Soyqrım sorumu çözülmür hələ,
Heç kim unutmayıb qırğını, Lələ,
Alınar Xocalı bitər məsələ,
Qalmaz qisas almaq gələn nəsilə.

## *Bir millətin harayıyam, Xocalıyam!*

Bir gecədə qırdı bizi qarı düşmən,
Alov yağdı üstümüzə yerdən, göydən,
Kəsilmişdi əlaqəmiz həndəvərdən,
Bir millətin harayıydım, Xocalıydım!

Qan örtmüşdü gözlərini dığaların,
Taxılmışdı nizələrə, cəsədləri çağaların,
Ölüm hökmü verilmişdi ağaların,
Bir millətin harayıydım, Xocalıydım!

Millət bilmir hara qaçsın, hara girsin,
Bilmir sussun, bilmir dinsin, ya kirisin,
Heç kim tapmır nə ölüsün, nə dirisin,
Bir millətin harayıydım, Xocalıydım!

Qaranlığı fürsət bilib qaçaqaçdı,
Ölüm qovur insanları çataçatdı,
Gör neçəsi yoxa çıxdı, itib, batdı,
Bir millətin harayıydım, Xocalıydım!

Nə kimsələr hayımıza, hay verdilər,
Nə kimsəni sovunmağa göndərdilər,
Nə dığanın burnun əzib, döndərdilər,
Bir millətin harayıydım, Xocalıydım!

Dünya səni qan qusasan, harda idin?
Qulağın kar, gözlərin kor, darda idin?
Mənim kimi bap-balaca xırda idin?,
Bir millətin harayıydım, Xocalıydım!

Otuz ildir, ha çağırıb səsləyirəm,
Bəzən olur yoruluram, həsləyirəm,
Ya Allahım! Sənə ümid bəsləyirəm,
Bir millətin harayıydım, Xocalıydım!

Təsəllidir son döyüşlər qəlbimizə,
Ümid verdi Şəhidlərim gözümüzə,
Zəfər çaldıq, indi gəldik özümüzə,
Bir millətin harayiyam, Xocalıyam!

Qisas doğdu bu millətin xislətindən,
Qaça bilməz bi kimsənə qismətindən,
Türk eliyəm dönəmmərəm ismətimdən,
Bir millətin harayiyam, Xocalıyam!

İndi-indi səs verirlər səsimizə,
Dünya bildi, güvənilir sözümüzə,
Dönəcəyik əldə bayraq elimizə,
Bir millətin harayiyam, Xocalıyam!

# DÜNYANIN ASTAR ÜZÜ

## *Fələyin tərbiyə metodu*

Məni də dəyirman bilib,
Fələk məndə dərd üyüdüb.
Salıb məni kəməndinə,
Gözlərimi dörd böyüdüb.

Uğur gəlməz, cəhd olmasa,
Bilinməz haqq, hərb olmasa,
Tarix bizə dərs olmasa,
Elə bilmə mərd böyüdüb.

Çox odlara salıb məni,
Artırıbdır dərdi, qəmi,
Göstəribdir hər sitəmi,
Bilə-bilə sərt böyüdüb.

Pis işlərdən sapdıraraq,
Hərdən vurub tərs şapalaq,
Sanıb məni bir yapalaq,
Özü məni pərt böyüdüb.

## *Özünə gəl ucal, dünya!*

Bəxtin qara, dillərin lal, qulağın kar, gözlərin kor,
Qoca dünya, qoca dünya, özünə gəl, ucal, dünya!
Dörd yanında harınlamış terrorçular tutub qərar,
Qoca dünya, qoca dünya, özünə gəl, ucal, dünya!

Həqiqəti, ədaləti bu gün yenə tanıyan yox,
Haqsızlığı, ədavəti bu gün yenə qıniyan yox,
Yalanları insanlara doğru kimi sırıyan çox,
Qoca dünya, qoca dünya, özünə gəl, ucal, dünya!

Oğru elə çığırır ki, bağrı qopur doğruların,
Tam əksini təqdim edir doğru olan sorğuların,
Anlamırlar mahiyyətin sülh boyaqlı çağrıların,
Qoca dünya, qoca dünya, özünə gəl, ucal, dünya!

İnsafı yox, mürvəti yox, gözü dönmüş pulluların,
Tükənməyir əməlləri, əli, qolu zorluların,
Yasaqlanır, tutuqlanır, ulu sözlü uluların,
Qoca dünya, qoca dünya, özünə gəl, ucal, dünya!

Bir gün gələr üzün gülər, işlər düşər qaydasına,
Ümidlərin çiçəklənər, bir baxarsan faydasına,
Millət dönər doğma yurda – öz elinə, obasına,
Qoca dünya, qoca dünya,özünə gəl, ucal, dünya!

## *Heç vaxt ölmür analar*

Hər bir kəsin ömründə –
Ürəyində, dilində,
Yaddaşının gözündə,
Heç vaxt ölmür analar!

Dostun olsa nə qədər,
Sevilməzsən bu qədər,
Bürüməsin qəm, kədər,
Heç vaxt ölmür analar!

O, müqəddəs, əzizdir,
Hər nemətdən ləzizdir,
Sevgisi bir dənizdir,
Heç vaxt ölmür analar!

Ruhu göyün qatında,
Cənnət qərar tutubdur,
Ayaqları altında,
Heç vaxt ölmür analar!

Bu dünyadan köçərkən,
Ana-ana deyərsən,
Onda özün biləssən
Heç vaxt ölmür analar!

## *Gedim xatirəmin qoynuna girim*

Yaman qəribsədim eli, obanı,
Gəzdiyim yerləri, suyu, havanı,
Mən necə qaytarım keçmiş zamanı,
Gedim xatirəmin qoynuna girim.

Uşaqlıq çağlarım gözümə durdu,
Xəyallar oyandı, başıma vurdu,
O keçən günlərim sanki yuxudu,
Gedim xatirəmin qoynuna girim.

Çəməndə çiçəklər hey sayrışardı,
Arılar bal üçün vizildaşardı,
Sarmaşıq laləylə qucaqlaşardı,
Gedim xatirəmin qoynuna girim.

Yamacda, dərədə quzular otlar,
İki ayaq üstə kişnəşər atlar,
Qayadan bal kimi süzər bulaqlar,
Gedim xatirəmin qoynuna girim.

Dağların təpəsi göyə hillənər,
Qayanın gözləri yola zillənər,
Narın yağış yağar, sular lillənər,
Gedim xatirəmin qoynuna girim.

Deyən uzun çəkər bu get-gəlişlər,
Xeyirə calansın olan görüşlər,
Yadımdan çıxmamış gözəl vərdişlər,
Gedim xatirəmin qoynuna girim.

## *Gəl qəbrimi güllələ*

Günahmı elədim səni sevəndə?,
Günah mənlik deyil, səndədir səndə.
Gözün ovsunlayıb saldı kəməndə,
İndi mən olmuşam günahkar bəndə?

Nə bir söz demişdim, nə də atmaca,
Gəlib keçdim səni, sakit, astaca.
Mən dura bilməzdim,sən durmayınca,
Günahkar sən oldun, günahkar mən də.

Çatdın qaşlarını sən bilə-bilə,
“Yox” dedin, “yox” dedin sən gülə-gülə.
Sən yola gəlmədin, mən də ki dilə,
Peşmanlıq çəkirsən o gündən belə.

Gərək mən dinəydim sənin yerinə,
Əllərim dəyəydi titrək əlinə.
Elçi göndərsəydim atan evinə,
Günahkar olmazdım, günah var məndə.

Əgər bağışlasan, gəl qəbrim üstə,
Şəklimi döyəclə, məni sillələ.
Əzablar çəkmisən günahım üstə,
Mənə əlin çatmir, qəbri güllələ.

## *Gedəcəm nə vaxtsa gəldiyim yerə*

Deyirlər bu dünya bir imtahandır,
Gələn də peşmandır, gedən də peşman.
Biz gələndə dünya təzə, əzəlmiş,
Hər yeri səhmanlı, hər şey gözəlmiş.
Biz gəldik dağıtdıq, talan eylədik,
Özümüz bilmədən ziyan eylədik.
Yedik şirin-şirin dünya malını,
Aldıq çoxlarının şirin canını.
Atlar yəhərlədik, qılınclar çaldıq,
Zəfərlər qazandıq, meydan suladıq.
Yaşadıq min illər, milyonlar belə,
Yazılmış taleni boş verdik yelə.
Dəyişdi adətlər, dəyişdi zaman,
Qurub yaratmağa öyrəşdi insan.
Dar gündə köməyə yetişdi Allah,
Keçdi neçə gecə, açıldı sabah.
Nazil oldu göydən neçə Kitablar,
Oxudu öyrəndi müdam insanlar.
Gəldi Zəbur, Tövrat, İncil və Quran,
Elm də göndərdi böyük Yaradan.
Oxuduq, öyrəndik, bu hala gəldik,
Savabı, günahı biz qana bildik.
Nəsə çatmir yenə, nəsə düz gəlmir,
Adəm övladları yatmır, dincəlmir.

Nəyisə axtarır, Göyün üzündə,
Nəyisə axtarır Yerin dibində.
Dindirir daşları daşın dilində,
İnanır tapacaq günün birində.
Bu inam onları haraya çəkmir,
İnam da, ümid də bitmir, tükənmir.
Bu insan bilmir ki, axtardığı yer,
Onun xəyalında, gümanındadır.
Nə vaxtsa gördüyü müqəddəs məkan,
Onun qəlbindəki imanındadır.
Mən də bir insanam Adəm balası,
Çatacaq bir gün də mənə sırası.
Gedəcəm savabım, günahlarımla,
Gedəcəm, gedəcəm Allaha sarı.
Ya bağışlar məni, ya cəza verər,
Ya da ki,...nə bilim, bir tədbir görər.
Gedəcəm nə vaxtsa gördüyüm yerə,
Gedəcəm nə vaxtsa gəldiyim yerə.

## *Bizə "dərs" deməyin qərblilər*

Şərqdə doğan Günəşi, Batıda söndürdünüz,
Haqq, ədalət deyəni, divara hördürdünüz,
İntibahın çağında, Allahı öldürdünüz,
Indi gəlib siz bizə, "dərs" deməyin qərblilər.

Dədə-baba adətin, tərgitdiniz ellərə,
Etmədiniz yaxşılıq, bir kimsəsiz kimlərə,
Azadliq qadağasın, şərt qoydunuz dillərə,
İndi gəlib siz bizə, "dərs" deməyin qərblilər.

Hər işdə zor işlədib, millətə öydürdünüz,
Özünüzü hər zaman, dünyaya söydürdünüz,
Anamız Təbiəti, zor ilə öldürdünüz,
İndi gəlib siz bizə, "dərs" deməyin qərblilər.

İndi də insanların, beyinlərin yeyirsiz,
Robotdur nədir ondan, fərqi yoxdur deyirsiz,
İnsanların qəlbində, imanı məhv edirsiz,
İndi gəlib siz bizə, "dərs" deməyin qərblilər.

Biz Şərqlilər bilirik,bizi Allah xəlq edib,
Kitabları göndərib, bizə Cənnət vəd edib,
Düz işə, düz əmələ, xalqımız biyət edib,
İndi gəlib siz bizə, "dərs" deməyin qərblilər.

Alimi danəndəniz, Şərq elmindən biçilib,
Əməliniz, feliniz, uzaqlardan seçilib,
Sabahki vədinizdən, bu gündən vaz keçilib,
İndi gəlib siz bizə, "dərs" deməyin qərblilər.

Əl çəkin yaxamızdan,daha cana doymuşuq,
Torpağımız yolunda, minlərlə baş qoymuşuq,
Unutmuşuq cox zaman, türk kökəmli soymuşuq!,
İndi gəlib siz bizə, "dərs" deməyin qərblilər.

## *Sənsiz belə yaşadım*

Sən mənim ulduzum, mənim ayımsan,
Sən mənim həyatım, qışım, yayımsan,
Sən mənim qismətim, qadın payımsan,
Bu ömrü mən sənsiz belə yaşadım.

Yuxumda sevgilim,mələyim oldun,
Ayıldım, kəsilən kələyim oldun,
Min oyun oynayan fələyim oldun,
Bu ömrü mən sənsiz belə yaşadım.

Adın əzbər oldu ağzım, dilimdə,
Ümid işıq saçdı üzü-gözümdə,
Dedim ki, dönərsən günün birində,
Bu ömrü mən sənsiz belə yaşadım.

Qiymadım saçının bircə telinə,
Titrərdi əllərim dəysə əlinə,
Sözdən çələng hördüm sənin eşqinə,
Bu ömrü mən sənsiz belə yaşadım.

Yaxşı ki, sən varsan, mələyim, gülüm,
Eşqinlə çırpınır şeyda bülbülüm,
Olsa da qismətim əziyyət, zülüm,
Bu ömrü mən sənsiz belə yaşadım.

## *Tale yazan yazdığını dəyişməyir*

Min ildir ki, bu dünyanın kədərini daşıyıram,
Min ildir ki, bu dünyanın, qədərini yaşıyıram.
Dara çəkib min kələklə, xəbərsiz də olmamışam,
Bu sınaqda heç fələyin, özünə də sınmamışam.
Bir qırpımda başa çatır, fani ömür dayanmayır,
Gör nə qədər şirindir ki, heç kim onu dananmayır.
Tələsməkdə Adəm oğlu, tez-tez özün sınıyacaq,
Boşa getmiş ömrü üçün, öz-özünü qınıyacaq.
Bəxtəvərdir o kəslər ki, zaman ilə ayaqlaşır,
Hər bir anın qədrin bilir, taleyilə qucaqlaşır.
Başa düşdüm göz yaşları heç bir şeyi dəyişməyir,
Köçən köçüb, tale yazan yazdığını dəyişməyir.

## *Bir bəndlik fikir*

Məhvə gedir bilsən nədən bəşəriyyət,
Tənəzzüldə mədəniyyət, həm cəmiyyət.
Hər yer terror, başdan-başa həp cinayət,
Dəyişmədə həm mahiyyət, həm keyfiyyət.

İnsanların nəfisləri, zər-zibana, vara düşüb,
Umduqları dünya malı,al-qumaşa, xara düşüb.
Şükür olsun!, Vardır hələ, haqq yolunda cihad edən,
O kəslərin imanları Ayətəl Qurana düşüb.

## *Həyatın pozulmaz qanunu*

Gələnlər gedəcək, durmaz, dayanmaz,
Yolundan gedəni saxlamaq olmaz.
Özünə qapılıb yaşamaq çətin,
Qanuni mütləqdir, nə sə qismətin.
Əlində nə varsa qədrini bil, sən,
Geriyə qayıtmaz, çıxsa əlindən.
Olsa da çox əziz atanla anan,
Onlar da köçəcək gələndə zaman.
Yas tutub hər zaman ağlamaq yetər,
Hüznlə yaşamaq ölümdən betər.
Allahın əmriylə, ölür yaranan,
Belə məqbul bilir, ulu Yaradan.
Sevinc də,kədər də ötüb keçəcək,
Bu dünya beləcə davam edəcək.
Nə qədər çatmayıb qəzavü-qədər,
Çalış ki, keçməsin, bu ömür hədər.
Hər ayın,hər günün qiymətini bil,
Bir də görərsən ki, çoxdan ötüb il.
Açıq olsun ağlın, elmə, biliyə,
Kamalla dur-otur, uyma dəliyə.
Bir anlıq ömürdür, olub bitəcək,
Sənin də həyatın sona yetəcək.
İnsansan,hər kəsə məlumdur zatın,
Allaha şükür qıl!, Allaha tapın!

## *Bu dünyaya yenidən gələ bilsəydim*

İmkan olsa bir də mən,
Bu dünyaya gələrdim.
Dönüb keçən illərə,
Gəncləşərdim yenidən.
Seçib qızlar içindən,
Yenə səni sevərdim.
Sən sevsən də özgəni,
Mən tək səni sevərdim.
İmkan olsa yenidən,
Bu dünyaya gələrdim.
Yenə səni itirib,
Axtarardım yenidən.
Boynu bükük söyüd tək
Yollarında bitərdim.
Sən olmayan yerlərdən,
İlim-ilim itərdim.
Məcnun kimi çöllərdə,
Vurğun olub gəzərdim.
Düşüb sənin eşqinə,
Yenə səni sevərdim.
İmkan olsa yenidən,
Bu dünyaya gələrdim.
Sənsiz yaşar yenidən,
Sənsiz dərdə düşərdim.

Qucaqlaşıb dərdinlə,
Bölüşərdim dərdimi.
Xəyal qurub min kərə,
Görüşünə gələrdim.
Yeni nağıl qurardım,
Olub keçən illərdən.
Düşüb nağıl selinə,
Dönüb nağıl olardım.
İmkan olsa yenidən,
Bu dünyaya gələrdim.
Səni gəzib, axtarıb,
Mən də kama çatardım.
İki ömrün birində,
Bəlkə, xoşbəxt olardım.
Təkrar olsun, eybi yox,
Qoy qayıtsın, o illər.
O illərin həsrərti,
İntizarı gözəlmiş.
Ötən günlər sən demə,
Gələnlərə dəyərmiş.
İmkan olsa yenidən,
Bu dünyaya gələrdim...

## *İki dünya arasında*

Bir zaman sevgiylə qızınan canım,
İndi başdan-başa buz içindədir.
Yorulmaq bilməyən əlim, ayağım,
Sözə baxmır daha, duz içindədir.

Giley də,güzar da işə yaramır,
Uzaq düşüb dostlar, heç kəs aramır,
Daha saçlarımı yellər daramır,
Üst-başım səhmansız, toz içindədir.

Nə qədər ötsə də ömür-gün belə,
Canımda, qolumda, güc qalıb hələ.
Taqətim dizimdə, zor gəlmir şələ,
Arzular tükənmir, yaz içindədir.

Hələki yaşayır eşqim gözümdə,
Vurnuxur fikirlər, təbim sözümdə,
Ağılım, kamalım, ruhum özümdə,
Ömür də bir sirdir, qoz içindədir.

Saçdır da ağarıb, çıxıb başıma,
Ömrü, Allah verir, baxma yaşıma,
İllərim yazılar qəbir daşıma,
Coxu gedib deyən, az içindədir.

## *Sevgisiz yaşamaq olmur*

İlahi verdiyin sevgiyə şükür,
İnsanla doğulur, insanla ölür,
Böldükcə çoxalır, qeybdən tökülür,
Odur, olmazları, olub-olduran.

Sevgidir, qəlblərdə, yuva qurdurur,
Sevgidir, qəlblərə, ümid doldurur,
Sevgidir, insanı, şərdən durdurur,
Odur, olmazları, olub-olduran.

Bəxtəvər o kəsdir, tez duyur bunu,
Şükr edib Allaha, tanıyır onu,
Bilir ki, dünyanın, dəyişməz donu,
Odur, olmazları, olub-olduran.

Dünyaya baxırsan, sevgidir hər yan,
Oxunan Kitablar, müqəddəs Quran,
Bu varlıq, bu torpaq, küllü kəhkaşan,
Odur, olmazları, olub-olduran.

Insana nemətdir məhəbbət,sevgi,
Var imiş qəlblərdə, min cürə rəngi,
Onu da Allahım, bir pay göndərdi,
Odur, olmazları, olub-olduran.

## Şair ömrü

Səhərlər Günəşdən bir nur qoparır,
Gündüz axtardığın gecələr tapır,
Bilmir ki, bəxt onun hara aparır,
Gecələr sayılır sair ömrünə.

Fikirlər axışıb dolur qəlbinə,
Yığışır,çoxalır, baxmır səddinə,
Gecələr yuxu da getmir gözünə,
Gecələr sayılır sair ömrünə.

Saf-çürük eyləyib, hesab verirlər,
Gündüzün işlərin heçə görürlər,
Fikrin saçlarını geçə hörürlər,
Gecələr sayılır sair ömrünə.

Vicdanı tərtəmiz, paxıllıq bilmir,
Vəzifə, var-dövlət – yaxınlıq bilmir,
Düzü, düz yazır, cığallıq bilmir,
Gecələr sayılır sair ömrünə.

Sevir,sevdikləri, saysız, hesabsız,
Yaradır sevgiylə, dəftər, kitabsız,
Sorum-sorğuların çoxu cavabsız,
Gecələr sayılır sair ömrünə.

Bircəcə sirrini bilsəydik barı,
Bağlıdır, bu qəlbin, daşı, divarı,
Uçur öz ruhuyla Allaha sarı,
Gecələr sayılır sair ömrünə.

Əlində düz durur, mizan-tərzi,
Kimsəynən o kəsin olmaz qərəzi,
Sevib-sevilməkdir onun mərəzi,
Gecələr sayılır sair ömrünə.

Bir ilham pərisi – Vətəni vardı,
Bir quru nəfəsi və təni vardı,
Sevməkdən ürəyi qabar-qabardı,
Gecələr sayılır sair ömrünə.

Cismi tənhalıqda bir dinclik tapır,
Xəyallar, ümidlər, qoynunda yatır,
Arzular içində arzuya çatır,
Gecələr sayılır sair ömrünə.

## *Axı, bu dünyadan nə istəyirik!*

Axı,bu dünyadan nə istəyirik,
Nəyini saxlayıb, verməyib dünya.
Verib Yeri, Göyü, Ulduzu, Ayı,
Şükür edənləri, görməyib dünya.

Günəş işıq saçır, Torpaq bar verir,
Yazda yağış yağır, qışda qar verir,
Dağları, bağları min nubar verir,
Hələ ki,yaşayır, ölməyib dünya.

O qədər sağılıb, sağmal inəktək,
Geyilib, sökülüb nimdaş köynəktək,
Çırpınıb, vurnuxub kövrək ürəktək,
Nə vaxt, ağrılara dözməyib dünya?

Verdiyi çörəyin, qədrin bilmirik,
Açdığı çiçəyin, ətrin bilmirik,
Müqəddəs Kitabın sətrin bilmirik,
Yaxşı ki, bizlərdən bezməyib dünya.

Əgər saya salsaq, bizə verdiyin,
Nöqsanlar saydığın, günah bildiyin,
Milyonlar içindən, mində birciyin,
İnsanın önünə düzməyib dünya.

Axı, bu dünyadan nə istəyirik,
Nəyi vermişik ki, ala bilmirik,
Gizlində, aşkarda min yol söymüşük,
Sağ olsun, bizləri əzməyib dünya.

## *Tapmağı asandır, seçməyi cətin*

Bu gerçək, bu doğru hardadır harda,
Axtaran axtarır həşirdə, hayda,
"Axtaran tapacaq" olsa da qayda,
Tapmağı asandır, seçməyi cətin.

Görməyib, tanımır rəsmini çəkən,
Bilmir nə bitəcək həqiqət əkən,
Doğrudan bəhs edir nahaq qan tökən,
Tapmağı asandır, seçməyi cətin.

Doğrunun yanında olmasa yalan,
Həqiqət hansıdır? Nə bilər insan,
O qədər bənzərdir bu iki canan,
Tapmağı asandır, seçməyi cətin.

Rəngarəng olsa da geydiyi donlar,
Yaxşı ki, bir yerdə yaşayır onlar,
Əziyyət çəksinlər seçimdə canlar,
Tapmağı asandır, seçməyi cətin.

Cox dəqiq mizanla xəlq edib Allah,
Ölçülü – biçili bir nizam qoyub,
Beləcə yaradıb hər şeyi Allah,
Tapmağı asandır, seçməyi cətin.

## *Sözün əsil üzü*

Mənim sözüm dürdanədir,
Haqq yolunda bir ayədir,
Silkələnsə bir cümləsi,
Küllü aləm viranədir.

Onlar dünyam, səltənətim,
Haqqa çəkir kəlmələrim,
Hər misrada min mətləbim,
Haqqın yolu qəmxanədir.

Ruhum göylər mələyidir,
Ağlım sözlər ələyidir,
Şeirim fikir bələyidir,
Kağız, qələm nə karədir.

Düşdüm haqqın yollarına,
Heyran oldum "ol"larına,
Əyan olsun çoxlarına,
Varlıq tamam əfsanədir.

Haqqı belə yozacağam,
Özümə gor qazacağam,
Belə yazdım, yazacağam,
Qoy desinlər divanədir.

## *Ucalmağı dağdan öyrən*

Ağır-ağır düşünməyi,
Zirvələrdə üşünməyi,
Dəyanətlə keçinməyi,
Ucalmağı dağdan öyrən.

Hünərin var başına qon,
Qayasına, daşına qon,
Gədiyinə, qaşına qon,
Əzəməti dağdan öyrən.

Bulaqları göz yaşıdır,
Çınqilları daş-qaşıdır,
Milyon illər var yaşıdır,
Şahidliyi dağdan öyrən.

Dağ dağlığın bilmir hələ,
Yolçusuna qurmaz tələ,
Çox danışmaz, dinmir belə,
Təmkinliyi dağdan öyrən.

Dərdi çoxdur dözümlüdür,
Ünsüyyətli, çozümlüdür,
Söykəklidir, düzümlüdür,
Qardaşlığı dağdan öyrən.

Cığırı var, keçidi var,
Mənzil uzaq yolları dar,
Dağa baxmağa nə var,
Dağdan baxmağı öyrən.

## *Ürək sevdiyini unutmur*

Sən sitəm eylədikcə,
At oynatdı ayrılıq.
Dözdüm, dözə bildikcə,
Qırılmadım biryolluq.

Yoxa çıxdın yanımdan,
Bir naxələf dost kimi.
Qopdun ruhum, canımdan,
Seygah kimi, rast kimi.

Ərşə qalxdı qəlbimin,
Nalələri, ahları.
Sozalmadı dözümüm,
Gözlədim sabahları.

Başladım gecə yatıb,
Pis yuxular görməyə.
Cox nağıllar uydurub,
Xatirələr hörməyə.

Nə yaman cox uzandı,
İntizarın yolları.
Qaş üstündə yoruldu,
Məhəbbətin qolları.

Gözlərim lap yorulub,
Ayaqlarım yerimir.
Xatirələr sovrulub,
Ürək durmur, kirimir.

Gözüm əhdini pozub,
Daha səni görəmmir.
Ürək min yerə yozub,
Ümidini üzəmmir.

Ağıl, yaddaş yarışmır,
Bu işlərə qarışmır.
Unutmağa sevgisin,
Yalnız ürək çalışmır.

## *Gözəgörünməyən həqiqət*

Sevgi bir nağıldır, səni qandırır,
Odlara qalayır, canı yandırır,
Bəzən cəhənnəmi sənə andırır,
Dedilər, baxmadım, yandım, inandım.

Dastanlar oxudum, Leyli, Məcnundan,
İçdim məhəbbətin, zəm-zəm suyundan,
Kimsə baş açmayıb, belə oyundan,
Dedilər, baxmadım, qandım, inandım.

Şirini Fərhaddan, çox sevmişəm mən,
Xosrov kimilərin, devirmişəm mən,
Sevməyi bələkdə, öyrənmişəm mən,
Dedilər, baxmadım, andım, inandım.

Nə qədər hikmətli, sözlər yazılıb,
Nə qədər müəmma, sirlər yozulub,
Kim görüb Allahdan, gələn pozulub,
Dedilər, baxmadım, dandım, inandım.

Sevginin əvvəli, sonu da vardır,
Yaşadım ömrümü, günümü sardı,
Fələyin qisməti, qubar-qubardı,
Dedilər, baxmadım, candım, inandım.

Çıxar candan ruhum, uçar göylərə,
Salar min bir naxış, gözəl üzlərə,
İnşallah dönəcək, gəldiyi yerə,
Dedilər, baxmadım, baxdım inandım.

## *Nəsə çatmır*

Mən didərgin, ruh kimiyəm,
Heç məkanda, qərarım yox.
Diri ikən, bir ölüyəm,
Qoyulmağa, məzarım yox.

İtib, batıb, uşaqlığım,
Dizdən düşüb, qoçaqlığım,
Yolun sonu-qocalığım,
Bir varacaq, güzarım yox.

Yoxa çıxıb, gəncliyim də,
Dağa çıxıb, dincliyim də,
Kara gəlmir, bicliyim də,
Davası yox,azarım çox.

Dərddi məni, əldən salan,
Dost vəfasız, ömür talan,
Fani dünya, yalan-palan,
Satılacaq, bazarım yox.

Dil bilənəm, hal əhliyəm,
Ömür borcdur, mən behliyəm,
Bülbül kimi, gileyliyəm,
Gülüstanım,gülzarım yox.

## *Xoşbəxtliyin xətası*

Bir anlıq xoşbəxtliyə,
Aldandım uşaq kimi,
Deyilən o sevgiyə,
Ömrümü verdim axı.

Sürüşüb ilan kimi,
Qoynuma girdi mənim,
Qəlbimdən vuran kimi,
Ruhumu verdim axı.

Məcnun tək divanəyim,
Çöllərə düşdüm deyim?
Sızladı kaman, neyim,
Ağlımı verdim axı.

Nə qədər çalışsam da,
Unuda bilmədim ki.
Pörşəldi vicudum da,
Canımı verdim axı.

Şükür et Yaradana,
Xəlq edib bu cahana,
Sevgi də bir bəhanə,
İmana gəldim axı

## *Nəyi deyək, nəyi deməyək*

Görən bu dünyada xoşbəxt olmağa,
Güvənli bir sevgi, məhəbbət yoxmu?
Tövbələr etməyə, günah yumağa,
Allahın yolunda ibadət yoxmu?

Oğullar atanın üzünə durur,
Qiz, gəlin min hiylə, min fəsad qurur,
Heç yada düşməyir, namus, ar, qürur,
Abır,həya gedib, ismət də yoxmu?

Var-dövlət uğrunda, davalar gedir,
Qardaşlar mülk üstə,qovğalar edir,
Dünyamı dağılır, xaosdur nədir,
Enində-sonunda qiyamət yoxmu?

Dostların dostluqdan, üzləri dönüb,
Kişilik yox olub, comərdlik ölüb,
İnsanın bəsirət çırağı sönüb,
Zülmətlər içində xəyanət yoxmu?

Nədən doğdu bunlar, kimdən doğuldu,
Kimin mayasından xəmir yoğruldu,
Nədən məsləkimiz göyə sovruldu,
Görüb, susmağında qəbahət yoxmu?

Şeytan əməlinə uyub cavanlar,
Böyüyü, kiçiyi saymayır onlar,
Haraya bəs baxır, aqil insanlar,
Birində bir çimdik dəyanət yoxmu?

Dənəyək keçmişi, dənəyək bir-bir,
Görək günahımız, səhvimiz nədir,
Bəlkə Allah bizə, tövbə ödədir,
Mizanlı tərəzi, ədalət yoxmu?

## *Qismət olub nə yaxşı, bu dünyaya gəlmişəm*

Qismət olub nə yaxşı, bu dünyaya gəlmişəm,
Yoxsa itib, batardım, göylərin ağuşunda.
Qismət olub nə yaxşı, bu dünyaya gəlmişəm,
Bəlkə donub qalardım, göylərin yağışında.

Hər nə desən yaradıb, Xudam verib bizlərə,
Verib torpaq, hava, su, bir də işıq gözlərə,
Dil verib ki, danışam, min rəng qatıb sözlərə,
Qismət olub nə yaxşı, bu dünyaya gəlmişəm.

Nə çatmır ki, söyləyin, bu dunyadan almağa,
Həvəs gərək hər kəsdə, yaşayıb, yaratmağa,
Gələnlər cəhd edəcək, burda durub, qalmağa,
Qismət olub nə yaxşı, bu dünyaya gəlmişəm.

Qəlbimiz daim açıq, məhəbbətə,sevincə,
Bir az çətin görsənir, yaşamağa gəlincə,
Bu dünyadan doymayır, gözlərimiz ölüncə,
Qismət olub nə yaxşı, bu dünyaya gəlmişəm.

Oxuduğum Kitablar, ağıl qoyub başıma,
Heç bilmədən özüm də, gəldim ahıl yaşıma,
“Ölüm” adlı mələk var, bir gün çıxar qarşıma,
Qismət olub nə yaxşı, bu dünyaya gəlmişəm,

Gərək sevək dünyanı, hər gün qurub, yaradaq,
Xoş əməllər tutaq ki, sonda rəhmət qazanaq,
Müftə verməz heç nəyi, gərək, biz də çalışaq,
Qismət olub nə yaxşı, bu dünyaya gəlmişəm.

Bu dünyanın sonuna, hələ varsa azacıq,
Tələssinlər gəlməyə, geciksələr, nə yazıq,
Şükürlər Yaradana, biz gəlmişik, biz varıq,
Qismət olub nə yaxşı, bu dünyaya gəlmişəm.

## *Dünya yiyəsiz deyil*

Dünyanı sevən kimi,dünya bizi daşdıyır,
Küsdürürsən özündən, dava-dalaş başdıyır,
İstəyirsən bac verib, kam alasan dünyadan,
Fələk yetirib özün, qamçısını yaşdıyır.

Kimi, keyfi ucundan, yaman sevir dünyanı,
Nəfsinə dur deyəmmir, basıb yeyir dünyanı,
Çoxları pis gündədir, babat dolana bilmir,
"Xaraba qalsın" deyib, gündə söyür dünyanı.

Göydən yağan yağışa,kimsə dur deyə bilməz,
Dağdan əsən küləyə,kimsə sur hörə bilməz,
Yaranmışın nə həddi, kimsə qur deyə biməz,
Dünyanı Yaradan var, özü görür dünyanı.

Əzəldən belə olub, belə gəlib-gedəcək,
Fələyin çərxi durmaz, daim dövran edəcək,
Hamı gələnlər əmin, bir gün mütləq köçəcək,
Dünya yiyəsiz deyil, Tanrı, bilir dünyanı.

# QAYIDIŞ

## *Qoy sevinsin elim mənim!*

Uzun çəkdi bu ayrılıq,
İli, ayı, gün sayırıq,
Vaxtı çatıb qayıdırıq,
Qoy sevinsin elim mənim.

Açılmaqda güllərimiz,
Yenə gülür gözlərimiz,
Zəfər çalır əsgərimiz,
Qoy sevinsin elim mənim.

Yeni yurdlar salacağıq,
Toyu-toya qatacağıq,
Xoşbəxtliyə batacağıq,
Qoy sevinsin elim mənim.

Getmişdiksə, gəlməkdəyik,
Vətən deyib ölməkdəyik,
Şuşamıza dönməkdəyik,
Qoy sevinsin elim mənim.

Qarı düşmən, çəkil geri,
Rədd ol burdan, əkil, yeri,
Murdar oğlu, itin biri,
Qoy sevinsin elim mənim.

## *Daha qaçqın deyilik!*

Bir zamanlar bizi yurddan qovanlar,
Evimizi, yurdumuzu soyanlar,
Başa çatdı etdiyiniz talanlar,
Biz dönmüşük, daha qaçqın deyilik!

Zatı qırıq, pis niyyətli Haysınız,
Bir terrorçu, xəyanətkar soysunuz,
Kəsikqulaq babanıza taysınız,
Biz dönmüşük, daha qaçqın deyilik!

Ha ağlayın, ha qışqırın, ha coşun,
Sizə çatmaz bu torpaqdan bir yosun,
Hələ durur igidimiz – bir qoşun,
Biz dönmüşük, daha qaçqın deyilik!

İndi bizdə nə cür desən silah var,
Zəfər dolu gələcək var, sabah var,
Haqq işinə rəvac verən Allah var,
Biz dönmüşük, daha qaçqın deyilik!

Sizi bir-bir əlimizlə boğduq ki,
Al bayrağı Qarabağa sancdıq ki,
Xocalının qisasını aldıq ki,
Biz dönmüşük, daha qaçqın deyilik!

Türkün oğlu döyüşlərdə yenilməz,
"Bu qorxaqdır, fərari̇dir" – deyilməz,
Namus, qeyrət şərəf işi, yeyilməz,
Biz dönmüşük, daha qaçqın deyilik!

Çıxın gedin bu torpaqdan, o mənim!,
Yiyəsi biz, sahibi biz, o mənim!,
Sən gəlməsən!, bura hakim – o benim!,
Biz dönmüşük, daha qaçqın deyilik!

Biz Günəşik, hər gün yenə doğarıq,
Dünən vardıq, bu gün varıq, olarıq,
Türk oğluyuq, yeni tarix yazarıq,
Biz dönmüşük, daha qaçqın deyilik!

*16.10.2020*

## *Səbr eylə Ana Yurd, gəlmişik daha!*

Daşı-daş üstündə qoymamış yağı,
Uçurmuş evləri, yandırmış bağı,
Könlümə, gözümə çəkdirmiş dağı.
Səbr eylə Ana Yurd, gəlmişik daha!

Gözlərim yolunda çırağa dönüb,
Ürəyim həsrətdən varağa dönüb,
Ümidim Üç Rəngli Bayrağa dönüb,
Səbr eylə Ana Yurd, gəlmişik daha!

Düşmənlər xar oldu, yenildi məni,
Oğullar can verdi, qurtardı Səni,
Şəhidin al qanı bəzər Vətəni,
Səbr eylə Ana Yurd, gəlmişik daha!

Yenə də bulaqlar çağlıyacaqdır,
Körpələr Seygahda ağlıyacaqdır,
Sevənlər əhd-peyman bağlıyacaqdır,
Səbr eylə Ana Yurd, gəlmişik daha!

Hazırıq yenidən Səni qurmağa,
El, oba tikməyə, şəhər salmağa,
Dirçəliş yolunda Zəfər çalmağa,
Səbr eylə Ana Yurd, gəlmişik daha!

Ali Baş Komandan – millət Lideri,
Verdiyi sözündən dönməmiş geri,
Qəti Qələbəyə doğru, İrəli!
Səbr eylə Ana Yurd, gəlmişik daha!

*8.11.2020*

## *Oxşayır özümə necə kəndimiz*

Pozulub tifaqı, nizamı çöküb,
Dağılmış divarlar suvağın töküb,
Cığırı yox olub, yolları itib,
Oxşayır özümə necə kəndimiz.

Elə bil itirib ümidin tamam,
Pis günə qalıbdır, pis günə yaman,
Özünü göstərib amansız zaman,
Oxşayır özümə necə kəndimiz.

Yanıb bağ-bağça, uçub bərə, bənd,
Çəkilib sitəmlər, verilib min dərd,
Uğrunda qan töküb, ölüb neçə mərd,
Oxşayır özümə necə kəndimiz.

Çoxu tanımır ki, evin, eşiyin,
Unudub bərəsin, dəlmə-deşiyin,
Bir vaxt bacarmadıq çəkək keşiyin,
Oxşayır özümə necə kəndimiz.

Qovrulur içimdə dərdim, azarım,
Yıxılsın evləri mərdiməzarın,
Əlindən nə qəlir məntək yazarın,
Oxşayır özümə necə kəndimiz.

*24.11.2020*

## *Kəndimizə qayıdacam*

Bu şəhərdə işim bitib,
Ölən ölüb, köçən köçüb.
Qocalmışam vaxtım keçib,
Daha deyən zaman yetib.
– Kəndimizə qayıdacam!

Qıdıqlamır bu şəhər heç,
Içimdəki duyğuları.
Sığal çəkmir, ovutmayır,
Ruhumdakı ağrıları.
– Kəndimizə qayıdacam!

Öz kökündən ayrı düşmüş,
Bir budağam pöhrə verməz.
Soy-kökündən uzaq düşən,
Başqa yerdə bitə bilməz.
– Kəndimizə qayıdacam!

Uşaqlıqda oynadığım,
O dağ, dərə, çənimişkən,
Çör-çöp yığıb qaladığım
O ocaqlar sönməmişkən
– Kəndimizə qayıdacam!

Pozmamışam mən onunla,
Öz əhdimi, peymanımı.
Dara çəkdim min yozumla,
Öz andımı, inamımı.
– Kəndimizə qayıdacam!

Eybi yoxdur, qoy danlasın,
Babam məni, dədəm məni.
Eybi yoxdur qaralasın,
Siyahıdan ötən məni.
– Kəndimizə qayıdacam!

Torpaq ağa, mən nökərəm,
Dönüb yenə ev tikərəm,
Oba salıb, yol çəkərəm,
Qorxuram ki, gecikərəm,
– Kəndimizə qayıdacam!

## *Şükür olsun! Biz qovuşduq!*

Qulaqları kar olubmuş,
Həsrətimin harayından.
Gündə bir daş düşərimiş,
Dağ könlünün sarayından.
Şükür olsun! Biz qovuşduq!

Dağın, daşın öz dili var,
Daş dilində danışırlar.
İnsan kimi bu dağ-daşlar,
Küsüşürlər, barışırlar.
Şükür olsun! Biz qovuşduq!

Yağan yağış göz yaşıydı,
Dumanla çən üst-başıydı,
Çəmənliklər naxışıydı,
Meşələri baxışıydı.
Şükür olsun! Biz qovuşduq!

Ehtibara, inama bax,
Əqidəyə, imana bax,
Gərdişə bax, zamana bax,
Məndən ötən gümana bax.
Şükür olsun! Biz qovuşduq!

Dözümə bax, gör, İlahi,
Otuzca il susdu durdu,
Öz əliylə öz ağzına,
Gör neçə il kilid vurdu.
Şükür olsun! Biz qovuşduq!

Dağıdılıb dağım-dağım,
Viran qalıb evim, bağım,
Yağmalanıb od-ocağım,
Sona yetdi darıxmağım.
Şükür olsun! Biz qovuşduq!

Dağın, daşın öz dili var,
Daş dilində danışıralr.
Dağlar bizə qardaşdılar,
Küssələr də barışırlar.
Şükür olsun! Biz qovuşduq!

## *Qara daş*

Üşəndi, titrədi mənim səsimdən,
Divardan sürüşüb düşən qara daş.
Sanki kövrəlmişdi bu gəlişimdən,
Mənimtək həsrətdən qəlbi yara daş.

Necə sinə gərmiş uzun illərə,
Necə dözə bilmiş coşğun sellərə.
Bir isti öpüşdən səksənib belə,
İtirib özünü, düşdü dara daş.

Onu babam qoymuş öz divarına,
Demiş ki, dəyməsin göz divarına.
Daşdan miras qoymuş övladlarına,
Düşmənin başında para-para daş.

Ayrılıq gör bizi nə günə qoymuş,
Həsrətdən daşın da rəngi solarmış,
Daşın, daş gözləri, doluxsunarmış,
Qanlı yaramıza məlhəm, çara daş.

Gözəldir torpaqda qara daş olmaq,
Qapqara olsan da, yaraşıq olmaq.
Nə fərqi, gərəkdir vətəndaş olmaq,
İstəyir insan ol, ya ki, qara daş.

## *Kəndimizdən görüntülər*

Hey axtarır gözlərim,
Sanki, heç vaxt olmayıb.
Kəndimizin yerindən,
Bir nişanə qalmayıb.

Elə bil ki, bizim tək,
Qaçqın düşüb ağaclar.
Azıb çətin yollarda,
İtgin düşüb yarpaqlar.

Divarların daşları,
Düşübdür pərən-pərən.
Belə rüzgar əsməyib,
Tarixdə hələm-hələm.

Zülm edibdir kafirlər,
Viran qalıb qəbirlər.
İki dəfə ölübdür,
Qəbirdəki ölülər.

Qorxudanmı qeyb olub,
Axar çaylar, bulaqlar?
Doğurdanmı kar olub,
Dünyadakı qulaqlar?

Belə düşmən olarmı,
Məlum deyil tayfası.
Dəyməmişdir heç zaman,
Bir kimsəyə faydası.

Göyə çəkib Əzrayıl,
Bu kəndəki dam-daşı.
Ağlamaqdan quruyub,
Dağların da göz yaşı.

İtib yollar, irizlər,
Quruyubdur kəhrizlər.
Kəndə divan çəkibdir,
Bu imansız,dinsizlər.

Burda mənim gəncliyim,
Uşaqlığım yox olub.
Burda mənim dincliyim,
Səadətim çox olub.

Arzularım bu yerdə,
Ayaq tutub yeriyib.
Burdan keçən qərib də,
Burda susub, kiriyib.

Gecələr mən buradan,
Seyr etmişəm ulduzu,
Soraqlayıb, arayıb,
Çox sevmişəm bir qızı.

Xəlq edib Yaradanım,
Bu kənddə doğulmuşam.
Burdan başlanan yolu,
Geriyə qayıtmişam.

## *Doğma məktəb*

Salam doğma məktəb! Gəldim qapına,
Bu dəfə gözümdən qan damar, damar.
Keçən günlərimi saldım yadıma,
Süzdü xatirələr ta hamar, hamar.

Səkkiz il bizləri qoynuna aldın,
Çətin yolumuzu səhmana saldın,
Hər kəsin qəlbində əbədi qaldın,
Bilməm zəhmətini kim danar, danar.

Tökülüb, sökülüb divarın,daşın,
Bilirəm cox çəkib qovğalı başın,
Görünmür gözümə sinif yoldaşım,
Bezib gözləməkdən ha bezar, bezar.

Dağılıb ellərə müəllimlərin,
Səndən uzaq düşüb nə çox şagirdin,
Otuz il çəksə də bitdi həsrətin,
Güləcək üzünə bu bahar, bahar.

Hanı Oruc ilə Qurban müəllim,
Məhərrəm müəllim, Bayram müəllim,
Məhəmməd müəllim, Məmməd müəllim,
Daha görəmməzsən ha axtar, axtar.

Biləsən, döyüşdən dönüb gəlmişik,
Üzü ağ dönmüşük, qalib qəlmişik,
Ölümü öldürüb, ölüb gəlmişik,
Daşlardan oğullar ha baxar, baxar.

Tikib quracağıq səni yenidən,
Əkilər bağında palıd, vələs,vən,
Sənə oxumağa gələcək nəvəm,
"Zəfər" qalstukunu ha taxar, taxar.

# İTHAFLAR

## *Nəvəm Batu bəyə*

Doğdu bu dünyaya bir körpə gəldi,
Anası sevindi, atası güldü.
Doğdu ömürlərə sevinc gətirdi,
Baba qürur duydu, nənə kövrəldi.

Bir oğul payı da göndərdi Xudam,
Mən də şükürdəyəm Rəbbimə müdam.
Ürəkdən sevinsin Bəxşeyiş qudam,
Gözü aydın olsun, şad olsun adam.

Doğdu bu dünyaya bir oğul gəldi,
Dedilər türk soyu artdı, yüksəldi.
Kişini tanıdan addı, əməldi,
Seçildi, adına Batu deyildi.

Bəxtin yeyin olsun, qismətin yüyrək,
Halalla yoğrulsun yediyin çörək.
Gəlişin, gülüşün, adın mübarək,
Babandan arzular, Allahdan kömək.

## *Anamın nəsihəti*

Vətən!, Vətən! – deyərdin...,
Dönüb Vətən olmuşam.
Qanım, ruhum, sevgimlə,
Ona qurban olmuşam.

Millət!, millət! – söylərdin...,
Türk oğlu türk olmuşam.
Dözüb ağrı, acıya,
Namus, qeyrət olmuşam.

Sinə gərib dar günə,
Səngər, sipər olmuşam.
Al bayraqlı ağacam,
Yolda bitər olmuşam.

Qoru – dedin Vətəni,
Vətən – Ana deməkdir.
Ay Anam! Ey Vətənim!
Mən də əsgər olmuşam.

Ayrılıq ocağında,
Uzun illər yanmışam.
Azad edib Vətəni,
Özüm ŞƏHİD olmuşam.

## ***Sənə necə yas tutum***

*Şəhid balamız Rüstəmov Vüsal*
*Valeh oğluna ithafən*

Sənsiz Şəhid qardaşım!
Göz-görəti ölürəm.
Nə danışa bilirəm,
Nə də susa bilirəm.

Həsrət bizi yoğurdu,
Həm yaxır, həm boğurdu.
Əsir düşmüş Vətənin,
Haya səni çağırdı.

Sən şəhərdə böyüdün,
Kəndimizi görmədin.
Vətən üçün ölsən də,
Bizim üçün ölmədin.

Sən əziz balamızsan,
Dərdlərə çaramizsan,
Uddurdun qan düşmənə,
Alınmaz qalamızsan.

Son mənzilə gedəndə,
Quş tək uçdu tabutun.
Şəhid oldun!, Ölmədin!,
Sənə necə yas tutum.

Rahat uyu ay bala!
Arzuların çin oldu.
Qan tökdüyün torpaqlar,
Yoğruldu Vətən oldu.

Şəhid oldun lap cavan,
Kəfən geydin bayraqdan.
Ad çıxardın, can qoydun,
Qürur duydu el-oban.

Dönəmmədin sözündən,
Qurban dedin özündən.
Keçib əcəl gözündən,
Şəhid oldun Şəhidim.

Heç bilmirəm nə edim,
Ölüm sənin yerinə.
Dur qəbirdən çıx oğlum,
Yatım sənin yerinə!

## *Belə-belə yola saldın dünyanı*

*Alıkeyxalı kəndinin ziyalı oğlu,*
*müğənni Elburus Yusifovu xatırlarkən*

Yetim qaldın həm atadan, babadan,
Danlaq gördün ağzı pisdən, yavadan,
Qanad çaldın özün uçdun yuvadan,
Belə-belə yola saldın dünyanı.

Xəzan oldu, boran oldu yolunda,
Mələklərdi həm sağında, solunda,
Qüvvət tutdu dizlərin də, qolun da,
Belə-belə yola saldın dünyanı.

Dost dedilər, özünə dost qazandın,
Dost olmasa yollarını azandın,
Dərd əlindən yorulmuşdun, bezardın,
Belə-belə yola saldın dünyanı.

Allah sənə bir səs verdi pəsi xoş,
Seygahı xoş, Şahnazı xoş, Rastı xoş,
Çox oxudun xalqın üçün, xoşdu, xoş!,
Belə-belə yola saldın dünyanı.

Yəqin bir gün xalqın səni anacaq,
Qohum-qardaş yoxluğuna yanacaq,
Səndən bizə xatirələr qalacaq,
Belə-belə yola saldın dünyanı.

## *Sevimli bacım Nailənin əziz xatirəsinə*

Günəş olub doğulsan da, yansan da,
Qürub edib qaranlığa büründün.
Əzab dolu günlərini dansan da,
Ömrün boyu dizin-dizin süründün.

Gülmədi üzünə taleyin, baxtın,
Rahatlıq vermədi yatdığın taxtın,
Gurladın göylərdə, şimşək tək çaxdın,
Namusa söykəndin, ara büründün.

Gül kimi açmışdın, gül kimi soldun,
Guya ki, dünyada bəxtəvər oldun,
Dizlərinə döydün, saçını yoldun,
Yəqin nəzər dəydi, gözə gələndin.

Daha eşidilmir avazın,səsin,
Əzrail yolunda qurmuş tələsin,
Qardaşın Allahdan rəhmət diləsin
Kəfənə büküldün, ağa bələndin.

Getdin, məni kimlər ağlayacaqdır,
Başına qaralar bağlayacaqdır.
Yasımı bəs kimlər saxlayacaqdır,
Seçilib hər yanda saya gələndin

Səni o dünyada axtaracağam,
Səni mələklərdən soruşacağam,
Bilirəm, mən sənə qovuşacağam,
Səsimə səs verib, haya gələndin.

## *Tabutu çiynində daşıyan qadın*

*Mustafayev Təhmasib Sərməst*
*oğlunun əziz xatirəsinə həsr olunub*

Torpaqdan qüdrəti vardı dizində,
Ağrısı,acısı yaşdı gözündə,
Oğlunun həsrəti yandı köksündə,
Bir ana vaysınıb hey ağlayırdı,
Ananın naləsi qəlb dağlayırdı.

Şəhid balasının rəsmi əlində,
Bayatı deyirdi ağlar dilində,
Oğlunun ölümü əymiş belin də,
Bir ana vaysınıb hey ağlayırdı.
Ananın naləsi qəlb dağlayırdı.

Bir yanda Şəhidlər, bir yanda Vətən,
Çox oldu bu yolda canından keçən,
Millətin qəlbinə çəkildi sitəm.
Bir ana vaysınıb hey ağlayırdı,
Ananın naləsi qəlb dağlayırdı.

Ananın səsindən haraylar qopur,
Dağlar silkələnir, qayalar qorxur,
Ata qürur duyur, təsəlli tapır.

Bir ana vaysınıb hey ağlayırdı,
Ananın naləsi qəlb dağlayırdı.

Tabutu çiynində daşıyan Qadın!,
Şəhid də, qazi də sənin övladın,
Şəhid Anasısan, ucadır adın.
Bir ana vaysınıb hey ağlayırdı,
Ananın naləsi qəlb dağlayırdı.

# TƏRCÜMƏLƏR
## KANADA POEZİYA İNCİLƏRİ

## *Oyanış*

***Çarlz Corc Duqlas Roberts***
***(1860-1943)***

Yenə göz oxşayır yaşıl otlaqlar,
Dərin dərələrdə çağlayır sular.
Qonub arzuların qanadlarına,
Yolun damarını sökür yolçular.

Köçəri quşların dinlə səsini,
Eşit bulaqların zümzüməsini.
Gör necə dilləşir çəmənddə otlar,
Ayın işiğında bərq vurur onlar.

Suallar çox uzun sonu görünmür,
Yolçunun cığırı, izi bilinmir.
Arzular bir dəfə ayaq açanda,
Əzablar qurtarır, xəyal tükənmir.

Müdam bir avazla qeybdən gələn səs,
Onun qulağına nəsə söyləyir.
Zamanın bədəvi tonqallarını,
Görünür hər zaman kimsə izləyir.

Nabələd yollarda çaşıb qalarsan,
Ölüm tək tərifdən uzaq olarsan.
Geriyə dönməyən səyyah kimi sən,
Gecəyə, gündüzə yoldaş olarsan.

Göylərin qatında nalələr qopar,
Tamam sakitləşib durana kimi,
Atəşlər, alovlar ərşə dayanar,
Pərvanələr ulduza çatana kimi.

Sevinclə kədərin qovuşuğunda,
Sən də bir rahatlıq taparsan yəqin,
Bir sulu çəməndə yuxuya dalıb,
Xəyalın yaşarsan keçən illərin.

## *Tənha cırcırama*

Tənha cırcırama bütün gecəni,
Yağışın altında tir-tir əsirdi.
Onun çırpıntısı, onun nəğməsi,
Ağrıdan qorxmayan sevinc səsiydi.

Boş yerə gurlayan soyuq tufandan,
Könülsüz, qarışıq, küydən, vur-haydan,
Külək oynatdığı nazık budaqdan,
Bir yüksək nəqarət müdam gəlirdi.

Qarşıda görünən dağa, dərəyə,
Bir yanda sürünən düzə, bərəyə,
Gandım ki, bir anda laqeydliyim,
Heç nədən, boş yerə, getməz gəzməyə.

Mənim də bu dalğın könlümə bir gün,
Cox yorğun, qayğılı beynimə bir gün,
İtgidən, qorxudan çıxaraq, yəqin,
Sevincim özümə dönəcək bir gün.

## *Aprel günləri*

Tərif edin günəşin, çıxdığı hər səhəri,
Sevinsin Yer Kürəsi! Doğdu Aprel günləri.

Sona çatdı Qış ömrü! Aprel bəzər səmanı,
Üzümə bax, ay Torpaq! Gülüş tutsun simanı.

Sona çatdı soyuq qış, kəsildi hər vəsvəsə,
İzin verdi böyüsün, Ana Torpaq hər kəsə.

Yayıldı tez havaya, dirçəlişin bu səsi,
Allaha çatdı yəqin, duaçının ayəsi.

Günlərin bu uğuru, görünür ki, bir daha,
Bir mədhiyyə surəsi, həsr edilib Allaha.

Kükrədi hər damarda axar sular, sirələr,
Yağdı isti yağışlar, cuşa gəldi dərələr.

Qaynadı, coşdu həyat,sürünən hər bir kökdə,
Boy atdı cavan budaq, qızardı hər özək də.

Şuxluq, şənlik içində olurkən Ana Torpaq,
Məftunluq mahnısını eşitdi Qadir Allah.

## *Əsil kişilər üçün nekroloq*

Oyansa yuxudan, kim erkən, səhər,
Ziyan görməz bundan, yəqin o kəslər.
Axşam evə sürər, mal-qarasını,
Evdə sevindirər öz balasını.
Məhləyə səs-küylə girən hər bir kəs,
Tövlədən atları apara bilməz.
İşgüzar, bəxtəvər, cəsur olanlar,
Zəhmətlə, əməklə gələcək qurar.
Kotanın qulpundan möhkəm tutanlar,
Açdığı şırımın pasını atar.
Əkdiyi tarlasın tərk eyləyən kəs,
Bağından bar-bəhər gözləyə bilməz.
Bir zaman qırdığı, daş, qaya, kərsək,
İndi onun üstün mütləq örtəcək.
Böyüyən, cücərən, yamyaşıl şeylər,
Nazlana-nazlana yuxuya gedər.
Ağ rəngli köklərlə sərgərdan tellər,
Getdikcə sürünüb yaxına gələr.
Onları cox sevmiş, sevmiş doyunca,
Özünə yol açmış ömrü boyunca.
Onlar da doldurmuş çox incə-incə,
Onun ürəyini sonda sevinclə.

## *Yüksəliş*

Sən yaratdın dünyanı, günlərin bir günündə,
Açmadın bizə sirrin, saxladın öz əlində.
Qüdrətinin gücüylə, amiranə hökmünlə,
Bir anda xəlq eylədin, kainatın özün də.

Sənin mərhəmətinlə, hər cür diqqət, qayğınla,
Yuvarlanır Günəş də, Yerdə bitir toxum da.
Təmtəraqla dolarmış, göy üzü ehtişamla,
Acılarmış gözləri dəstərək otunun da,

Hər kəsi eşidirsən, duyursan hər bir səsi,
Tez çatır qulağına, quşcığazın nəğməsi.
Dinləyirsən Arkturun, o nəhəng akkordunu,
Ulduztək salamlayır, sənin kimi Lordunu.

Dənizlərdən, tufandan, ulduzlardan, alovdan,
Səni cox bəyənirik, Səni çox sevirik biz.
Həm zamanın, məkanın, cürbəcür oyunundan,
Surətinə baxmağı, çox üstün tuturuq biz.

Xəlq edib yaratdığın, Sənin özünə oxşar,
Sənin üçün qılınar, ibadətlər dualar,
Kimin ki, soluğunda, Sənin nəfəsin vardır,
Bütün ruhuylə o kəs, ölümə iqtidardır.

## *Yazın astanasında*

Duyulur Aprelin isti nəfəsi,
Çatlayır budağın ilkin pöhrəsi.
Belə gözəl şeylər, doğma, əzizdir,
Yorğun ürəyimə, bir təsəllidir.

Rəngarəng xəyallar göylərdə süzər,
Dolaşıb yerlərdə, ağaclar bəzər.
Belə ovsun, cadu, belə müəmma,
Aydın görünməmiş, heç vaxt bu qədər.

Titrədər qəlbləri, sevinclə fərəh,
Hər yerdə yenilik, qanad gərəcək.
Yazın hərarəti, üzə güləcək,
"Allaha şükürlər" olsun deyəcək.

# KİTABIN İÇİNDƏKİLƏR

NİSGİLDƏN NİKBİNLİYƏ SƏSLƏYƏN MİSRALAR (*Ön söz*) ........ 3

**ZƏFƏR YOLU**

Ula, Qurdum! Zaman, sənin zamanın! ........ 10
Zəfərə gedən yol ........ 11
Azərbaycan əsgəri ........ 12
Gülə-gülə ölümə gedənlər ........ 13
Şəhid anası ........ 14
Şəhidlər xiyabanı ........ 15
Bu gecə bir azca rahat yatmışam ........ 16
Vətənin o başı bu başı olmur ........ 18
Şəhidlər xiyabanında ........ 20
Qana bələnmiş torpaq ........ 22
Zərb ritmində havacat ........ 25
Ümid itməyəndə ........ 27
Xocalı haqqında elegiya ........ 28
Bir millətin harayıyam, Xocalıyam! ........ 31

## DÜNYANIN ASTAR ÜZÜ

Fələyin tərbiyə metodu ........ 34
Özünə gəl ucal, dünya! ........ 35
Heç vaxt ölmür analar ........ 36
Gedim xatirəmin qoynuna girim ........ 37
Gəl qəbrimi güllələ ........ 39
Gedəcəm nə vaxtsa gəldiyim yerə ........ 40
Bizə "dərs" deməyin qərblilər ........ 42
Sənsiz belə yaşadım ........ 44
Tale yazan yazdığını dəyişməyir ........ 45
Bir bəndlik fikir ........ 46
Həyatın pozulmaz qanunu ........ 47
Bu dünyaya yenidən gələ bilsəydim ........ 48
İki dünya arasında ........ 50
Sevgisiz yaşamaq olmur ........ 51
Şair ömrü ........ 52
Axı, bu dünyadan nə istəyirik! ........ 54
Tapmağı asandır, seçməyi çətin ........ 56
Sözün əsil üzü ........ 57
Ucalmağı dağdan öyrən ........ 58
Ürək sevdiyini unutmur ........ 60
Gözəgörünməyən həqiqət ........ 62
Nəsə çatmır ........ 64
Xoşbəxtliyin xətası ........ 65

Nəyi deyək, nəyi deməyək ........ 66
Qismət olub nə yaxşı, bu dünyaya gəlmişəm ........ 68
Dünya yiyəsiz deyil ........ 70

## QAYIDIŞ

Qoy sevinsin elim mənim! ........ 72
Daha qaçqın deyilik! ........ 73
Səbr eylə Ana Yurd, gəlmişik daha! ........ 75
Oxşayır özümə necə kəndimiz ........ 77
Kəndimizə qayıdacam ........ 78
Şükür olsun! Biz qovuşduq! ........ 80
Qara daş ........ 82
Kəndimizdən görüntülər ........ 83
Doğma məktəb ........ 86

## İTHAFLAR

Nəvəm Batu bəyə ........ 90
Anamın nəsihəti ........ 91
Sənə necə yas tutum ........ 92
Belə-belə yola saldın dünyanı ........ 94
Sevimli bacım Nailənin əziz xatirəsinə ........ 96
Tabutu çiynində daşıyan qadın ........ 98

## TƏRCÜMƏLƏR

*Kanada poeziya inciləri*

Oyanış ........................................................................ 102
Tənha cırcırama ............................................................. 104
Aprel günləri ................................................................. 105
Əsil kişilər üçün nekroloq ............................................... 106
Yüksəliş ........................................................................ 107
Yazın astanasında .......................................................... 108

*Kitab «Mütərcim» Nəşriyyat-Poliqrafiya Mərkəzində səhifələnmiş və çap olunmuşdur.*

Çapa imzalanıb: 01.08.2022.
Format: 84x108 1/32. Qarnitur: Times.
Həcmi: 7 ç.v. Tiraj: 200. Sifariş № 124.

TƏRCÜMƏ
VƏ NƏŞRİYYAT-POLİQRAFİYA MƏRKƏZİ

Az 1014, Bakı, Rəsul Rza küç., 125/139b
Tel./faks 596 21 44;
*e-mail: mutarjim@mail.ru*
www.mutercim.az